# Planetin ekoloji təhlükəsizliyinə xidmət nümunəsi

**Şuşa ərazisində ermənilərin ekoloji terror siyasətinə etiraz əlaməti olaraq keçirilən aksiya üç gündür ki, davam edir. Bu müddət ərzində yüzlərlə ekoloq, jurnalist, vətəndaş cəmiyyəti institutunun nümayəndəsi, sadə vətəndaşlar aksiyaya qoşularaq Rusiya sülhməramlılaırnın nəzarəti altında olan Azərbaycan ərazilərində təbii sərvətlərin ermənilər tərəfindən talanmasına, ekoloji cinayətlərin törədilməsinə etiraz etməkdədir. Məlum aksiya həm də, beynəlxalq əhəmiyyətə malikdir. Buna səbəb onun müasir dünyamızda ümumbəşəri təhlükə hesab edilən ekoloji terror əleyhinə keçirilməsidir.**

## Ekologiya daxili məsələ deyil

Ekoloji cinayətlərin artıq beynəlxalq hüquq araşdırmaları kateqoriyasına daxil olmasına səbəb müasir dünyamızda demokratiya – insan hüquqları məsələsi kimi, ekologiyanın da heç bir dövlət üçün “daxili məsələ” hesab edilməməsidir. Əslində, ekoloji faktorun məhz beynəlxalq aspektdən dəyərləndirilməsi tamamilə doğru və məntiqlidir. Çünki dünyamız çoxsaylı inzibati sərhədlərə ayrılsa da, bəşəriyyətin vahid ev adına yalnız bir ünvanı var ki, bu da Yer kürəsidir. Ekologiyanın heç bir inzibati sərhəd tanımadığını nəzərə alsaq, bu, dünyanın harasında törədilməsindən asılı olmayaraq, hər bir ekoloji terror, ümumilikdə, planetimiz üçün təhlükə deməkdir. Başqa sözlə desək, Meksika körfəzində suyun çirklənməsi, yaxud Amazon meşələrində ağacların kütləvi şəkildə qırılması bəşəriyyətin sağlam gələcəyi üçün nə dərəcədə təhdiddirsə, Qarabağda torpaq örtüyü və su hövzələrinin çirklənməsi və məhv edilməsi də eyni dərəcədə təhlükədir. Bu isə o deməkdir ki, əslində, soyuq dekabr ayında gecə-gündüz demədən Şuşada ekoloji terror əleyhinə aksiya keçirən soydaşlarımız, bununla bütün planetin müdafiəçiləri qismində çıxış etməkdədirlər.

## Ekoloji terrora “Yox!” deyilməlidir

12 Dekabr aksiyası ümumbəşəri əhəmiyyətə malik olduğu üçün ona beynəlxalq siyasi və ekoloji təşkilatların da dəstək verməsi vacibdir. Belə bir dəstək, hər şeydən öncə, həmin təşkilatların özlərinin praktiki baxımdan yararlılığına təsdiqlənməsi, bəşəriyyətin sağlam gələcəyi naminə real addımlar atmasının isbatı baxımından gərəklidir. Aksiyaya beynəlxalq təşkilatların biganə qalmaması onların öz işlərinə, eləcə də yaşadıqları planetin bu günü və sabahına məsuliyyətlə yanaşdıqlarının göstəricisi ola bilər.

Bundan başqa, beynəlxalq həmrəylik ermənilərin həyata keçirdiyi ekoloji terrorun qarşısının alınması, onun ağır nəticələrinin ortadan qaldırılması baxımından da effektiv addım olar. Ermənilər həmin dəstək nəticəsində təkcə Azərbaycan xalqının deyil, dünya ictimaiyyətinin də təzyiqi ilə üzləşər ki, bu da onları qarət və talanlarını, eləcə də ekoloji cinayətlərini dayandırmağa məcbur edər. Ancaq, təəssüf ki, Şuşadakı etiraz aksiyası ilə bağlı bəzi dövlətlərin media orqanlarında müəyyən məlumatlar yer alsa da, beynəlxalq təşkilatlar tərəfindən, həmişəki kimi, susqunluq nümayiş olunur.

## Təbii sərvətlər xalqa məxsusdur, separatçılara yox!

Dekabrın 12-də keçirilən aksiya ekoloji terrorla yanaşı, həm də ermənilərin Qızılbulaq və Dəmirli yataqlarından qanunsuz istifadəsinə etiraz xarakteri daşıyır ki, bu da beynəlxalq hüquqa görə, ciddi qanun pozuntusudur. Çünki beynəlxalq hüquq istənilən xalq və dövlətə məxsus təbii sərvətin onun iradəsinə xaric istismarını qadağan edir. Belə olan halda, ermənilərin Azərbaycan ərazisindəki yataqları vəhşicəsinə istismar etməsi, sərvətlərimizi talamaqla yanaşı, həm də ekologiyamızı məhv etməsi beynəlxalq hüququn kobud şəkildə pozulması deməkdir. Ona görə də, ermənilərin bütün ekoloji cinayətləri kimi, Qızılbulaq və Dəmirli yataqlarından istifadə əsnasında törətdiyi cinayət əməlləri də beynəlxalq məhkəmələrdə araşdırılmalı, bu cinayəti bilavasitə törədənlərlə yanaşı, onlara şərait yaradanlar da məsuliyyətə cəlb edilməlidir. Unutmayaq ki, dünyanın hər yerində təbii sərvətlər separatçılara yox, yalnız xalqa məxsusdur.

## Yataqların monitorinqində əcnəbi ekoloqlar da iştirak etməlidirlər

Məlum olduğu kimi, Qızılbulaq və Dəmirli yataqlarının monitorinqinin keçirilməsi baş tutmayıb. Lakin Vətən müharibəsinin timsalında çox olmazları mümkün edən Azərbaycanın bu istəyini də reallaşdıracağı, gec-tez həmin yataqlara faktiki baxımdan da sahib çıxacağı şübhəsizdir. Adıçəkilən yataqlarda həyata keçiriləcək araşdırmalar erməni talanlarının miqyası, onun acı nəticələri haqqında daha dəqiq məlumatlar əldə etməyə imkan verəcək. Bununla yanaşı, yataqların monitorinqinə azərbaycanlı mütəxəssislərlə yanaşı, əcnəbi ekoloqların da cəlb edilməsi, bu missiyanın beynəlxalq müşahidəçilərin iştirakı ilə gerçəkləşməsi ikiqat faydalı olar. Bu, erməni vəhşiliyinin, erməni cinayətlərinin beynəlxalq miqyasda ifşasına kömək edər, “məzlum”, “çarəsiz” erməni obrazına ciddi zərbə olar. Bütün dünya şahid olar ki, ermənilərin Azərbaycana qarşı həyata keçirdiyi çoxəsrlik ekoloji terror bu gün də davam edir. Bu terror Azərbaycanla yanaşı, bütün dünyanın gələcəyi üçün ciddi təhdiddir.

**Seymur ƏLİYEV**



Xalq qəzeti .- 2022.- 15 dekabr.- S.10.